Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

№ 32 (2066) 11 mart 2020-ci il

# "O dünyaya köçən dünyam..."

## Şahmar Əkbərzadəni xatırlayarkən

(əvvəli ötən saylarımızda)

**...Şahmarın yaxın dostlarından Bəxtiyar Vahabzadənin, Nurəddin Rzanın gözlərində yaş gilələnir. Şahmar öz dostları ilə öyünərdi həmişə. Özü demişkən, Xudunu, Zeynalı itirəndən sonra Bəxtiyarla, Nurəddinlə nəfəs alardı...**

...Adətən şux görünən Polad Bülbüloğlunun baxışlarından kədər süzülür...

...Şəmsəddin Axundov qəmli-qəmli susur...

...Nəbi Xəzri Şahmar Əkbərzadənin poeziyasından danışır...

Şahmarın ruhuna, poeziyasına sayğı göstərən həmkarlarını şair və yazıçıları görürəm:

Cəmil Əlibəyov, Anar, Elçin, Əlibala Hacızadə, İlyas Tapdıq, Nahid Hacızadə, Famil Mehdi, Əli Səmədli, Xalid Əlimirzəyev, Yusif Kərimov, Nüsrət Kəsəmənli, Zəlimxan Yaqub, Aqil Abbas, Hidayət Elvüsal, Ağacəfər Həsənli, Mustafa Çəmənli... Yas məclisində bir neçə siyasi partiya rəhbərləri də gözə dəyir. Bu vaxtsız itki hamını göynədir...

Dostları, tanışları, doğmaları Şahmarın ömür-gün yoldaşı Mələk xanıma, qızı Zöhrəyə, oğlanları Əkbərə, Elşənə, Elturana başsağlığı verir: "Başınız sağ olsun..." "Şahmarın adını, ocağını qoruyun"...

Sanki bu anlarda Şahmarın gur səsini eşidirəm:

**Əllərimdən uçan dünyam,**
**Baş götürüb qaçan dünyam,**
**O dünyaya köçən dünyam,**
**Səni hardan alım indi?**

### "AYIRAR BU DÜNYA BİZİ NƏ VAXTSA..."

**Gündəlikdən sətirlər.**

"Özündən çox özgələrə yananlar, el-obalarımızı düşünənlər haqqında fikirləşəndə Şahmarı anıram". Şahmarın dostu Çingiz Aytmatovun Şahmarı yaxın dostu Bəxtiyar Vahabzadəyə yazdığı məktubdan götürülmüş bu sətrlərdə böyük məna var. "Özgələrə yanan Şahmar".

Mən onu əzəldən elə bu cür - dost yolunda pərvanə kimi yanan görmüşəm. Dost sevincinə dostdan çox sevinən, dost kədərinə dostdan çox kədərlənən Şahmar...

Mədəniyyət Nazirliyinə və "Mədəniyyət" qəzetinin ünvanına Şahmarın ölümü ilə bağlı məktub və teleqramlar gəlir. Çoxu da tanınmış isimlərdən. Aytmatov, Süleymenov, Baküler...

Odlu-alovlu. Emosional, çılğın, həssas Şahmar... Biz bu son illərdə onunla demək olar ki, hər gün görüşərdik.

"Mədəniyyət" qəzeti redaksiyasının soyuq divarları onun odlu nəfəsi ilə qızınardı... Məclislərdə şeir deyərdi - salon səsindən titrəyərdi... Şaqraq gülüşü uzaqdan eşidilərdi.

Yalnız istirahət günləri görüşməzdik. Onda da çox vaxt axşamlar zəng vurardı:

"Dədə, niyaran oldum, necəsən?.. Özündən muğayat ol". Arabir də zarafatla deyərdi: "Heç demirsən Əkbərzadə hardadır?"

Sinədəftər idi Şahmar: klassik və müasir şeirimizin canlı ensiklopediyası idi. Saatlarla əzbərdən şeir deyərdi.

Bəli, biz onunla sonuncu dəfə avqustun 30-da son dəfə görüşdük. Üzgözündən işıq yağırdı. Dedi ki, bilirsən niyə sevinirəm? Bu gün nəvəmin - Səmanın ad günüdür, dörd yaşı olur, ora tələsirəm. Sonra özünəməxsus şirin bir ləhcədə uşağın dilindən eşitdiklərini danışdı. Axırda "Nəvə ayrı şeydir...

Dövlətdə dəvə, övladda nəvə" - dedi. Mən onu təbrik etdim: "Nəvə toyu görəsən".

Görüşüb-öpüşüb ayrıldıq. Səhər qəzet çıxan günü idi. Vədələşdik ki, tezdən görüşək. Sözünün üstündə durmadı, gəlmədi Şahmar...

O, iki gündən sonra Kiprə, Uluslararası Poeziya Festivalına gedəcəkdi. Getmədi. Gedə bilmədi.

**Ovut bircə hovur məni,**
**Əcəl yaman qovur məni,**
**Mən öləndə çevir məni**
**Üzü dağlara-dağlara**

Bu Şahmarın şeiridir.

**Zəkana möhtacam, ey ulu Sinam,**
**Yatan cürətimi yataqdan qurtar.**
**Qoyma qiyamətdə imansız yanam,**
**Vətən qeyrətimi infarktdan qurtar.**

Bu misralar da Şahmarındır.

**Bəxtin gözlənilməz günlə rastlaşar,**
**Odun da, gözün də Şahmarsızlaşar,**
**Dadın da, duzun da Şahmarsızlaşar,**
**Ayırar bu dünya bizi nə vaxtsa.**

Dünya dostları, doğmaları bir-birindən ayırır... təzədən görüşdürmək üçün.

**Əlvida, Şahmar.**
**Görüşənədək, Şahmar.**



### "OLUB" DEYİRƏM, "ÖLÜB" DEYƏMMİRƏM

Gündəlikdən sətirlər. Sentyabr havası özüylə bir bozluq gətirib.

Necə deyərlər, həyat öz axarıyla gedir... Şahmarın şəkli onun masasının üstündədir. Qara lent və qırmızı qərənfillərin əhatəsində. Redaksiya əməkdaşlarının hamısı qəmlidir. Dost-tanışlar hələ şokdadır. Bu, necə inanılmaz bir ölüm oldu.

Arabir redaksiyanın telefonu zəng çalır. Diksinirəm. Götürməyə əlim gəlmir. Hələ də onu soruşan var - Şahmar Əkbərzadənin: "Şahmar müəllimi olar?" Duruxuram. Handan-hana cavab verməli oluram: "Şahmar müəllim yoxdur". Soruşurlar: "Bəs nə vaxt olacaq?" Mən nə deyim? Deyim ki, heç vaxt?.. Deyə bilmirəm. Susuram. Xəttin o başındakı adam sualı yenə təkrar edir. Mənsə yenə susuram. Görünür, müsahibim dilxor olur: "Şahmar müəllim bu gün işdə olacaq?!" Mənim səsimdən və sükutumdan şübhələnən müsahibim öz-özünə deyir: "Deyəsən, nəsə olub...". "Olub" deyirəm, "ölüb" deyəmmirəm.

Şahmarın gur səsi qulağımdan getmir:

-Dədə, mənim uşaqlığımın, gəncliyimin çox hissəsi Şuşada keçib. Mən Şuşada texnikum bitirmişəm, orada müəllimlik təcrübəsi keçmişəm. Əgər Şuşa yerində olsaydı, yayın bu cırhacırında mənim bu şəhərdə nə işim vardı. Məni yandırır Şuşa...

Gündəlikdən sətirlər.

Şahmarın böyük sənətkarımız Bəxtiyar Vahabzadə və görkəmli alimimiz Nurəddin Rza ilə dostluğunun yaşı bir qərinədən çoxdur. Mən şahidi olmuşam ki, Şahmar öz dostları haqqında necə şövqlə, fəxrlə danışırdı.

Dəfndən sonra Nurəddin Rza ilə görüşüb söhbətləşirik.

-Nurəddin müəllim, Şahmarla bağlı xüsusi buraxılış hazırlayırıq. Bəlkə siz də öz dostunuzla bağlı nəsə yazasız.

Nurəddin müəllim dərindən köks ötürüb deyir:

- Mən Şahmar barədə böyük bir yazı ilə çıxış edəcəyəm. Mənə elə gəlir ki, o, lirikamızın Sabiri idi. Biz əvəzsiz bir şairi və insanı itirdik.

### GÜL, AY ŞAHNAR...

Saralmış gündəlik vərəqlərində əyri-üyrü xəttlə yazılmış sətirlər diqqətimi cəlb edir:

**Ömür- Tanrı göyərçini,**
**Uçar bir gün bil, ay Şahmar!**
**Göz yaşını dəsmalla yox,**
**Sən qılıncla sil, ay Şahmar.**

**Araz olub çağlayarsan...**
**Dərddən qurşaq bağlayarsan...**
**Sən güləndə ağlayırsan,**
**Ağlayanda gül, ay Şahmar.**

**Tale sənə ağıl verib,**
**Ömür adlı nağıl verib,**
**Nəvə verib, oğul verib,**
**Gəl şax dayan, gəl, ay Şahmar.**

**Dostla böldün son tikəni,**
**Sinən üstü-dərd əkini,**
**Mən bilirəm, sən çəkəni**
**Çəkə bilməz fil, ay Şahmar.**

**Firuz, sənin üzün haqda**
**Möhkəm dayan bərk ayaqda.**
**İzin qalsın bu torpaqda -**
**Nə usan, nə öl, ay Şahmar...**

**(ardı növbəti sayımızda)**

**Firuz Mustafa**



AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ DƏSTƏYİ İLƏ DƏRC OLUNUR

# Bir ailənin həyat hekayəsi

## Söhbət Sara İbrahimlinin "Yasaq sevgilər" romanından gedir



*Vaqif Yusifli*

**Romanın tarixi, inkişaf mərhələləri, mövzu və sənətkarlıq məsələləri barədə söz açan tədqiqatçılar ailə-məişət romanları haqqında da fikir söyləyirlər. Bu mövzuda yazılan əsərlərdə bir ailədə yaxud ailələrdə baş verən hadisələr qələmə alınır. Qadın-kişi münasibətləri, sevgi macəraları, dramatik və faciəvi hadisələr, əxlaq deformasiyaları həmin mövzunun əsas şaxələridir.**

### Dünya və Azərbaycan ədəbiyyatında

**(istər klassik, istərsə də müasir dövrdə) ailə-məişət romanları ən dəbdə olan əsərlər sırasındadır. Ancaq ailə-məişət romanlarında təkcə sırf ailə məsələləri deyil, həm də ailədən kənar məsələlər də öz əksini tapır. İctimai aləmdə baş verən hadisələr də bu romanlara qatılır, çünki hər bir ailə cəmiyyətin bir parçasıdır və ailədə baş verən hadisələr müəyyən mənada cəmiyyət hadisələri ilə səsləşir.**

Sona İbrahimin (onun adı bəlkə də çoxsaylı oxuculara məlum deyil, amma bəzi qəzet və jurnallarda sosial şəbəkələrdə hekayələri ilə tanış olmuşuq). "Yasaq sevgilər" romanı bir qadının taleyindən söz açır və bütöv roman boyu onun bir insan kimi keçdiyi həyat yolu ilə tanış oluruq. Müəllif Səma adlı bu qadının xarakterini fərdi, yalnız onun özünə məxsus səciyyəvi cizgilərlə rəsm edir.

Əvvəl onu mənsub olduğu ailədə təsvir edir: atası, anası, bacı-qardaşları əhatəsində. Məlum olur ki, bu ailədə övladlara münasibətdə fərqlilik var. Xüsusilə, Səmanın anası böyük qızı Sonaya və oğlanları Çingiz və Bəhruza əsl ana kimi mehribanlıq göstərir. Amma Səmaya münasibəti az qala yad bir ananın münasibətidir - ona acıqlanır, küsdürür, saya salmır.

### Romanın lap əvvəlində

Səma bu dünyaya gəlişindən söz açır: "Deyirlər insanın dünyaya gəldiyi gün hava necədirsə, bu onun taleyinə təsir edir. Əgər göy üzünün aydın, günəşli, sakit günündə dünyaya gəlmisənsə, həyatın da elə həmin günün havası kimi sakit, xoşbəxt keçəcək. Dumanlı, çiskinli, boz-bulanıq havada doğulmusansa, bu bozluq həyatın boyu səni izləyəcək.

Fırtınalı, qasırğalı havada doğulanların taleyini isə, ümumiyyətlə təsəvvür etməyə dəyməz ".

Əlbəttə, Səmanın bu fikirləri əsassız deyil, bir inancdan irəli gəlir və doğurdan da, onun həyatı fırtınalarla, qasırğalarla, təzadlarla müşayiət olunur.

Anasının və böyük bacısının ona laqeyidliyi, saya almamağı həyatında müəyyən çatlar yaradır, amma bütün bunlara baxmayaraq, Səma xaraktercə dəyişmir, o fırtına və qasırğalara sinə gəlməyi bacarırdı.

Müəllif təsvir etdiyi ailəni ayrı-ayrı, fərdi planda, hər birini öz xasiyyətinə uyğun nəzərə çarpdırır. Ata Ziya kişi əsərdə Azərbaycan kişisinin mükəmməl obrazı kimi səciyyələndirilir. Əsərdə nisbətən az görünsə də, o, təmkinlidir. Əsl ailə başçısına xas olan xüsusiyyətləri ilə seçilir, əsl ziyalıdır. Kitablara hədsiz sevgisi var. Arvadı onun rəflərə yığdığı kitabları yandırır və Ziya kişi bu hərəkətinə görə arvadını evdən qovur.

**Anaya gəldikdə isə öncə qeyd etdiyimiz kimi, onun patriarxallığı diqqəti cəlb edir. Təkcə Səmaya münasibəti ilə deyil, digər hadisələrdə də şüurunda hökm sürən mühafizəkarlığından xilas ola bilmir.**

Ailənin iki oğlu - Çingiz və Bəhruzun taleyi isə daha acınacaqlı olur. Hər ikisi narkotikə meyl edir və faciəli şəkildə dünyalarını dəyişirlər. Böyük qız sona isə... aldadılaraq qaçırılır, sonra yenə evə dönür. Günah kimdədir? Ziya kimi alicənab bir kişinin ailəsində niyə bu bədbəxtliklər baş verir? Bunun iki səbəbini aydınlaşdırmaq olar. Birincisi, naqis ana tərbiyəsi, ikincisi isə kənar mühitin təsiri və hər ikisi bir-birini tamamlayır.

**Amma əsərin əsas qəhrəmanı Səmadır. Deyə bilərik ki, o, təmiz, namuslu Azərbaycan qadınının tipik obrazıdır. Səma həyatın ağrı-acılarından, fırtına və qasırğalarından keçə-keçə özünü dərk edir. Ümumiyyətlə, özünü dərketmə prosesi hər bir əsər qərhəmanının xarakterini müəyyənləşdirir. Azərbaycan romanında biz bunu çox müşahidə etmişik. (istər tarixi, istərsə də müasir romanlarda). Lakin qəhrəmanın özünü dərk etmə prosesi birdən-birə baş vermir. Bu prosesdən öncə əsərin qəhrəmanı düşdüyü mühitdə o qədər də fəal deyil, lakin baş verən hadisələrin təsiri ilə o, dəyişir. Dərk edir ki, yaşadığı mühitdə fəal və mübariz olmalıdır.**

### Ailə ağır və faciəvi hallarla üzləşir

Ata, sonra ana dünyasını dəyişirlər, oğlanlar narkotik bəlasında xilas ola bilmirlər. Bütün bunların fövqündə isə Səma xaraktercə dəyişmir, lakin onun xarakterinə mübarizlik, özgə halına biganə qalmamaq kimi keyfiyyətlər əlavə olunur. O, ailənin əksər qayğılarını öz üzərinə götürür.

Səmanın sevgiyə münasibəti də maraqlıdır. O, bu müqəddəs hissə ağlın gözüylə baxır, hisslərinə uymur. Uzaq qohumu Mahirlə münasibəti bir xeyli tərəddüddən sonra baş tutur.

### Hiss olunur ki,

ailə həyatı təkcə iki sevən insanın adi münasibəti deyil. Çünki öz ailəsinin sevgisizlik üzərində bərqərar olması ona dərs olmuşdur.

Romanda Səmanın tələbəlik həyatı da diqqətdən yayınmır. Onun istiqanlı və savadlı bir qız olması təkcə tələbə dostlarının deyil, müəllimlərin də nəzərindən qaçmır. Təbii ki, əxlaqi cəhətdən naqis olan bir müəllim ona qiymət yazmaq üçün pis bir təmənnaya düşür, amma Səma burada ona əxlaq dərsi keçir.

Romanda Səmanı müxalifət havasında da görə bilirik. Amma bu uzun çəkmir. Hiss edir ki o, qəlbən, ruhən müxalifətçi deyil. Amma bu olayları təsvir etməklə müəllif Səmanın həyatda baş verən hadisələrə laqeyd qalmadığını göstərir.

Ailə-məişət romanlarında təsirli səhnələrsiz keçinmək olur. Gözlənilməz hadisələr, qəfil situasiyalar, lirik və psixoloji təsvirlər bu tipli romanların effektini artırır. Məsələn, Səmaya aşiq olan sarışın bir oğlanın faciəsi doğrudan da oxucunu sarsıdır. Səmanın iki qardaşının faciəli ölümü də təsirlidir.

Romanın sonlarına doğru Səmanın həyatına ağrı-acılarından, fırtına və qasırğalarından keçərək özünü təsdiq etməsi belə bir faktı sübut edir ki, insan bütün ömrü boyu öz müsbət xarakterinə sadiq qalarsa, o, yaşadığı mühitin ucalığına qalxar. O ucalıq isə müasir dövrdə hər insana qismət olmur.

**Roman sadə və səlis dillə qələmə alınıb. İfadə tərzində kələ-kötürlük, dilində cümlə naqisliyi nəzərə çarpmır. Təsvir olunan obrazların hər biri öz xarakterinə uyğun tərzdə danışır.**

Romanda təbiət təsvirləri ilə obrazların keçirdiyi hisslər arasında bir əlaqə, bir bağlılıq var.

"Haradasa uzaqlarda göy guruldadı. Qalxıb pəncərəni taybatay açdım. Yağışdan sonra havadan torpaq qoxusu gəlirdi. Günortadan bəri qaşqabağı tökülən göy üzü indi tərtəmiz idi. Tufan sakitləşmişdi. Üfüqdə göyqurşağı görünürdü".

Roman bu nikbin sətrlərlə bitir. Faciələri, ölümləri həyatın bundan sonra gözəlləşəcəyinə inam hissi əvəz edir.

**"Yasaq sevgilər" romanının müəllifi Sara İbrahimli ixtisasca mühəndisdir.**

# ... it kimi darıxmaq nətəhər olur?

**İtinizin gecələr hürməyini dayandıra bilmirsinizsə, bu halın nə qədər əsəbləri pozan bir şey olduğunu da yaxşı bilirsiniz. Xüsusilə də itinizin səbəbsiz yerə hürdüyünü düşünürsünüzsə. Ancaq ola bilər ki, itiniz gecələr hürərək sizə bir mesaj vermək istəyir. İtinizin hürməsinin səbəbini tapmaq yuxunuzla və qonşularınızla olan münasibətlərinizi qoruya bilər.**

**Yaxşı, bəs, itlər gecələr niyə hürürlər?**



**Sıxıntı: İtlər də eynilə yalnız qalan insanlar kimi darıxa bilirlər. Darıxan bir köpək çox hürməyə başlayar. Bu səbəbdən itinizə siz yoxkən başının qarışması üçün interaktiv oyuncaqlar ala bilərsiniz.**

**Qorxu: İnsan kimi itlər də gecələr eşitdikləri səslərdən hürkürlər. Bir it gecələr qorxursa, eşitdiyi hər şeyə hürməyə başlayar. Həm də eşitdiyi səslərdən sonra sizi xəbərdar etmək üçün də hürə bilər.**

**Yalnızlıq: İtlərin gecə hürməklərinin ən əsas səbəblərindən biridir. İtlər sürü heyvanlarıdır. Bu səbəbdən gecələr bir otaqda yalnız qalarlarsa, diqqət çəkmək üçün hürə bilərlər. İtinizin sizinlə otaqda birgə yatmağına icazə verməyiniz onun gecələr hürməyinin qarşısını ala bilər. Əgər itinizi yataq otağınıza buraxa bilmirsinizsə, o zaman ona dost ola biləcək başqa bir it də alın.**

**Maraqlanasınız deyə: Bir çox it qayğı görmək, diqqət çəkmək üçün hürərlər. İstər sevilmək, istər yemək, istərsə də başqa bir şey olsun, sizin diqqətinizi çəkmək üçün hürməyi seçərlər. Əgər itinizin diqqət çəkmək üçün hürdüyünün fərqindəsinizsə, elə edin ki, guya onu eşitmirsiniz.**

**Əks təqdirdə, əgər "səssiz ol", "şşş" ya da susmağı üçün başqa nələrsə desəniz, itiniz həmişə diqqətinizi çəkmək üçün hürməyi çıxış yolu kimi görəcək.**

**Səsə həssaslıq: İtlər çox güclü eşitməyə malik olan qulaqlara sahibdirlər. Eviniz sizə çox səssiz görünsə də, itiniz çöldən gələn səslərə qarşı son dərəcə həssasdır və bu səslərə hürməklə reaksiya verər. Yatarkən televizor və ya radionu açıq qoymaq itinizin çöldən gələn səsə olan diqqətinizi fərqli yönə yönləndirə bilər və gecə hürməyinin qarşısını ala bilər.**

**Hərəkətsizlik: Əgər itiniz siz işdəykən tək başına vaxt keçirirsə, yatmamışdan əvvəl sizinlə sadəcə qısa bir vaxt keçirirsə, bütün gecə narahat olacaq. Bütün gün siz evdə yoxkən yığdığı enerjini xərcləmək istəyərlər, sizi görəndə həyəcanlanarlar və diqqət gözləyərlər. Yığdıqları enerjini xərcləyə bilsinlər deyə ən yaxşı üsul onlara idman etdirməkdir. İtinizi başqa itlərlə birgə qaça, oynaya biləyəcəyi itlər olan bir yerə apara bilərsiniz, ya da özünüz onunla birgə idman edə bilərsiniz. İdmandan sonra itinizin yorulmağı onun yuxuya getməyinə çox yaxşı kömək olacaq.**

**Eminquey**